**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kollegiyasının 2024-cü il 12 iyul tarixli 3/1 nömrəli Qərarı ilə təsdiq olunmuş "Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi Təqaüd Proqramı" çərçivəsində təhsil alacaq şəxslərin seçilməsi meyarları, prosedurları və təhsilin maliyyələşdirilməsi Qaydaları"ndan**

**ÇIXARIŞ**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın (bundan sonra – Strategiya) Tədbirlər Planının 1.1.14-cü yarımbəndinin 3-cü abzasının icrasını təmin etmək məqsədilə hazırlanmışdır və "Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi Təqaüd Proqramı" (bundan sonra – Təqaüd Proqramı) çərçivəsində mədəniyyət və yaradıcı sənayelərin (bundan sonra – MYS) müxtəlif sahələri üzrə təhsil alacaq Azərbaycan Respublikası vətəndaşlarının (bundan sonra – proqram iştirakçıları) seçimi meyarlarını və prosedurlarını, həmçinin Təqaüd Proqramı üzrə təhsilin maliyyələşdirilməsi qaydalarını və şərtlərini müəyyən edir.

1.2. Bu Qaydaların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **təqaüd proqramı –** 15 yaşdan yuxarı şəxslərin yaradıcı potensialını inkişaf etdirmək, ölkədə MYS və mədəniyyətin müxtəlif sahələri üzrə əmək bazarındakı rəqabət qabiliyyətli işçi qüvvəsi ehtiyaclarını qarşılamaq məqsədilə yaradılmış proqram;

1.2.2. **qısamüddətli təlim, kurs və proqramlar** – MYS və mədəniyyətin müxtəlif sahələri üzrə zəruri bilik və bacarıqların əldə edilməsi məqsədilə Azərbaycan Respublikası ərazisində və ondan kənarda təşkil olunan və davametmə müddəti 6 aydan artıq olmayan dərslər məcmusu;

1.2.3. **ustad dərsləri** – proqram iştirakçılarının MYS və mədəniyyətin müxtəlif sahələri üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi, eyni zamanda professor və təcrübəli pedaqoqlar tərəfindən tədris və təlim texologiyaları sahəsində öz biliklərinin gənc nəslə ötürülməsini ehtiva edən dərslər;

1.2.4. **təşkilatçı** – Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərən, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi və ya müvafiq səlahiyyətə malik digər qurum, təşkilat və ya müəssisə tərəfindən təsdiq olunmuş tədris proqramına (kurikuluma), eləcə də təlim, kurs və proqramların təşkili üçün zəruri infrastruktura (məkan, avadanlıqlar və s.), metodiki heyətə (təlimçi və s.) və metodiki vəsaitə malik olan fiziki və ya hüquqi şəxs.

1.3. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Təqaüd Proqramı çərçivəsində aşağıdakı növ təhsil seçimləri mümkündür:

1.4.1. bakalavriat səviyyəsi üzrə xaricdə təhsil;

1.4.2. magistratura səviyyəsi üzrə xaricdə təhsil;

1.4.3. xaricdə keçirilən qısamüddətli təlim, kurs və proqramlar (o cümlədən distant (məsafədən) formada) üzrə təhsil;

1.4.4. Azərbaycan Respublikasının ərazisində keçirilən qısamüddətli təlim, kurs və proqramlar (o cümlədən distant (məsafədən) formada) üzrə təhsil.

1.5. Təqaüd Proqramı çərçivəsində maliyyələşdiriləcək ixtisaslaşma istiqamətlərinin siyahısı və kvotalar bu Qaydaların 1 nömrəli Əlavəsində, təqaüdün verilməsi üçün üstünlük

verilən xarici ali təhsil müəssisələrinin siyahısı isə bu Qaydaların 2 nömrəli Əlavəsində müəyyən olunur.

1.6. Proqram iştirakçıları bu Qaydalar ilə müəyyən edilmiş seçim meyarlarına uyğunluğun qiymətləndirilməsinin və müsahibənin nəticələrinə görə seçilirlər.

1.7. Dövlət sifarişi və ya dövlət hesabına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və ya magistratura səviyyələri üzrə təhsilin normativ müddətinin yarısından artıq müddətdə təhsil alan, habelə Azərbaycan Respublikasının dövlət proqramları və beynəlxalq müqavilələri (hökumətlərarası təqaüd proqramları) çərçivəsində xarici ali təhsil müəssisələrində bakalavriat və ya magistratura səviyyələri üzrə təhsilini başa vurmuş proqram iştirakçıları eyni təhsil səviyyəsi üzrə proqram iştirakçılarının seçilməsində namizəd qismində iştirak edə bilməzlər.

## 2. Proqram iştirakçılarının seçimi meyarları və prosedurları

2.1. **Bakalavriat səviyyəsi üzrə xaricdə təhsil üçün proqram iştirakçılarının seçimi aşağıdakı meyarlar əsasında aparılır:**

2.1.1. namizədin cari tədris ilində ümumtəhsil müəssisələrinin buraxılış sinfində (XI sinif və ya xaricdə təhsil aldıqda müvafiq buraxılış sinfi) təhsil alması və ya tam orta təhsilə malik olması;

2.1.2. namizədin bu Qaydalara 2 nömrəli Əlavədə yer alan xarici ali təhsil müəssisəsinə qəbul olunması;

2.1.3. namizədin xarici ali təhsil müəssisəsində bakalavriat səviyyəsi üzrə təhsil almaq istədiyi və ya təhsil aldığı ixtisasın bu Qaydalara 1 nömrəli Əlavədə müəyyən olunan ixtisaslaşma istiqamətlərinə uyğun olması;

2.1.4. namizədin təhsil almaq istədiyi xarici ali təhsil müəssisəsinin tələb etdiyi formada beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS, DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMER) malik olması və ya öncəki təhsilini Təqaüd Proqramı çərçivəsində təhsil almaq istədiyi xarici dildə alması;

2.1.5. namizədin təhsil almaq istədiyi ixtisas sahəsi üzrə zəruri nəzəri biliklərə, yaradıcılıq qabiliyyətinə və istedada malik olması;

2.1.6. namizədin məntiqi mühakimə, təqdimat və kommunikasiya bacarıqları, özünəinam və inandırma qabiliyyətinin zəruri səviyyədə olması.

2.2. **Magistratura səviyyəsi üzrə xaricdə təhsil üçün proqram iştirakçılarının seçimi aşağıdakı meyarlar əsasında aparılır:**

2.2.1. namizədin cari tədris ilində ali təhsil müəssisəsinin sonuncu kursunda təhsil alması və ya bakalavr ali peşə-ixtisas dərəcəsinə malik olması (xaricdə ali təhsil aldıqda kvalifikasiyasının tanınması);

2.2.2. namizədin bu Qaydalara 2 nömrəli Əlavədə yer alan xarici ali təhsil müəssisəsinə qəbul olunması;

2.2.3. namizədin xarici ali təhsil müəssisəsində magistratura səviyyəsi üzrə təhsil almaq istədiyi və ya təhsil aldığı ixtisasın bu Qaydalara 1 nömrəli Əlavədə müəyyən olunan ixtisaslaşma istiqamətlərinə uyğun olması;

2.2.4. namizədin təhsil almaq istədiyi xarici ali təhsil müəssisəsinin tələb etdiyi formada beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS, DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMER) malik olması və ya öncəki təhsilini Təqaüd Proqramı çərçivəsində təhsil almaq istədiyi xarici dildə alması;

2.2.5. namizədin bakalavriat təhsil səviyyəsi üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na əsasən müəyyən edilmiş Ümumi Orta

Müvəffəqiyyət Göstəricisinin (ÜOMG) 71 bal və ya ondan yuxarı olması (xaricdə ali təhsil aldıqda ekvivalentliyin təmin olunması);

2.2.6. namizədin təhsil almaq istədiyi ixtisas sahəsi üzrə zəruri nəzəri biliklərə, eləcə də yaradıcılıq qabiliyyətinə və istedada malik olması;

2.2.7. namizədin məntiqi mühakimə, təqdimat və kommunikasiya bacarıqları, özünəinam və inandırma qabiliyyətinin zəruri səviyyədə olması.

2.3. **Xaricdə keçirilən qısamüddətli təlim, kurs və proqramlar (o cümlədən distant (məsafədən) formada) üzrə seçim aşağıdakı meyarlar əsasında aparılır:**

2.3.1. namizədin tam orta, peşə, orta ixtisas və ya ali təhsildən hər hansı birinə malik olması (xaricdə ali təhsil aldıqda kvalifikasiyasının tanınması);

2.3.2. namizədin xarici təlim, kurs və proqramlar çərçivəsində mənimsəyəcəyi sahənin və dərslər məcmusunun bu Qaydalara 1 nömrəli Əlavədə müəyyən olunan ixtisaslaşma istiqamətlərinə uyğun olması;

2.3.3. namizədin xarici təlim, kurs və proqramların keçiriləcəyi tədris dilini dillər üzrə ümumavropa çərçivə sənədinə (The Common European Framework of Reference for Languages - CEFR) uyğun olaraq ən azı B1 səviyyəsində bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS, DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMER) malik olması;

2.3.4. namizədin xaricdə keçirilən təlim, kurs və proqramlar çəçivəsində mənimsəniləcək sahə və dərslər məcmusu üzrə zəruri nəzəri biliklərə, yaradıcılıq qabiliyyətinə və istedada malik olması;

2.3.5. namizədin məntiqi mühakimə, təqdimat və kommunikasiya bacarıqları, özünəinam və inandırma qabiliyyətinin zəruri səviyyədə olması.

2.4. **Azərbaycan Respublikası ərazisində keçirilən qısamüddətli təlim, kurs və proqramlar üzrə seçim aşağıdakı meyarlar əsasında aparılır:**

2.4.1. namizədin tam orta, peşə, orta ixtisas və ya ali təhsildən hər hansı birinə malik olması (xaricdə ali təhsil aldıqda kvalifikasiyasının tanınması);

2.4.2. namizədin Azərbaycan Respublikası ərazisində keçirilən təlim, kurs və proqramlar çərçivəsində mənimsəyəcəyi sahənin və dərslər məcmusunun bu Qaydalara 1 nömrəli Əlavədə müəyyən olunan ixtisaslaşma istiqamətlərinə uyğun olması;

2.4.3. namizədin Azərbaycan Respublikası ərazisində keçirilən qısamüddətli təlim, kurs və proqramlar çərçivəsində mənimsəniləcək sahə və dərslər məcmusu üzrə zəruri nəzəri biliklərə, yaradıcılıq qabiliyyətinə və istedada malik olması;

2.4.4. namizədin məntiqi mühakimə, təqdimat və kommunikasiya bacarıqlarının zəruri səviyyədə olması.

## 3. Təqaüd proqramı üzrə müsabiqəyə müraciət qaydası

3.1. Təqaüd proqramı üzrə müsabiqə müsahibə əsasında keçirilir.

3.2. Proqram iştirakçılarının seçimi barədə elan, namizədlərdən sənədlərin qəbulunun son tarixi göstərilməklə, hər təqvim ilinin ilk ayı ərzində Nazirliyin rəsmi internet informasiya ehtiyatlarında yerləşdirilir.

3.3. Müsahibədə iştirak etmək istəyən namizədlər sənədlərin qəbulu üçün müəyyən edilmiş müddət ərzində Nazirliyin rəsmi internet səhifəsində "Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi Təqaüd Proqramı"nda iştirak etmək üçün elektron ərizə"ni (bundan sonra – elektron ərizə) doldurur və təsdiq edir. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci və 32.2-1-ci maddələrinin tələbləri, həmçinin namizədin uyğunluğunun qiymətləndirildiyi meyarlar nəzərə alınmaqla ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

3.3.1. **Bakalavriat səviyyəsində xaricdə təhsil üzrə:**

3.3.1.1. namizədin cari tədris ilində ümumtəhsil müəssisələrinin buraxılış sinfində (XI sinif və ya xaricdə təhsil aldıqda müvafiq buraxılış sinfi) təhsil almasını təsdiq edən arayış və ya tam orta təhsil və ya orta ixtisas təhsili haqqında dövlət sənədinin surəti;

3.3.1.2. namizədin xarici ali təhsil müəssisəsinə qəbul edildiyini və ya xarici ali təhsil müəssisəsində təhsil aldığını təsdiq edən sənədin (ingilis, rus və türk dillərindən başqa digər dillərdə olan sənədlərin notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi) surəti;

3.3.1.3. namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatının surəti və ya öncəki təhsilini təhsil alacağı xarici dildə almasını təsdiq edən sənədin surəti;

3.3.1.4. namizədin beynəlxalq təhsil proqramları üzrə müəyyən edilmiş keçid ballarının minimum və maksimum hədləri aralığında (minimum və maksimum bal daxil olmaqla) göstəricisini təsdiq edən müvafiq təhsil müəssisəsindən arayışın surəti;

3.3.1.5. namizədin sağlamlığı haqqında arayış (forma AZS086/1).

3.3.2. **Magistratura səviyyəsində xaricdə təhsil üzrə:**

3.3.2.1. namizədin cari tədris ilində ali təhsil müəssisəsinin sonuncu tədris ilində təhsil almasını təsdiq edən arayış və ya bakalavr ali peşə-ixtisas dərəcəsi haqqında dövlət sənədinin surəti;

3.3.2.2. namizədin xarici ali təhsil müəssisəsinə qəbul edildiyini və ya xarici ali təhsil müəssisəsində təhsil aldığını təsdiq edən sənədin (ingilis, rus və türk dillərindən başqa digər dillərdə olan sənədlərin notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi) surəti;

3.3.2.3. bakalavriat səviyyəsi üzrə xarici ali təhsilə aid kvalifikasiyanın tanınmasına dair şəhadətnamənin (xaricdə ali təhsil aldıqda) surəti;

3.3.2.4. namizədin xarici ali təhsil müəssisəsində təhsil alma bacarıqları barədə rəyi özündə ehtiva edən ali təhsil müəssisəsi və ya elmi müəssisə və təşkilatda çalışan professor-müəllim heyətinin ən azı 2 (iki) üzvü tərəfindən verilmiş tövsiyə məktubunun (namizəd əmək fəaliyyəti ilə məşğul olduğu halda, məktublardan biri onun işəgötürəni tərəfindən təqdim edilə bilər) əsli və ya surəti;

3.3.2.5. namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatının surəti və ya öncəki təhsilini təhsil alacağı xarici dildə almasını təsdiq edən sənədin surəti;

3.3.2.6. namizədin transkriptinin (ÜOMG göstərilməklə) surəti;

3.3.2.7. namizədin sağlamlığı haqqında arayış (forma AZS-086/1).

3.3.3. **Xaricdə keçirilən qısamüddətli təlim, kurs və proqramlar (o cümlədən distant (məsafədən) formada) üzrə təhsil almaq məqsədilə:**

3.3.3.1. namizədin ən yüksək təhsil səviyyəsi haqqında sənədin surəti;

3.3.3.2. namizəd təhsil aldıqda, təhsil alması barədə müvafiq təhsil müəssisəsindən arayış;

3.3.3.3. namizəd əmək fəaliyyəti ilə məşğul olduqda, əmək fəaliyyəti barədə müvafiq iş yerindən arayış;

3.3.3.4. namizədin tərcümeyi-halı;

3.3.3.5. namizədin xaricdə keçirilən təlim, kurs və proqramlar çərçivəsində mənimsəyəcəyi sahə və dərslər məcmusu üzrə tədris dilini dillər üzrə ümumavropa çərçivə sənədinə (The Common European Framework of Reference for Languages - CEFR) uyğun olaraq ən azı B1 səviyyəsində bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatının (ALPT, DUOLINGO, CILS, DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMER) surəti və ya öncəki təhsilini həmin xarici dildə almasını təsdiq edən sənədin əsli və ya surəti;

3.3.3.6. namizədin sağlamlığı haqqında arayış (forma AZS086/1) (distant (məsafədən) formada təhsil zamanı tələb olunmaya bilər).

3.3.4. **Azərbaycan Respublikası ərazisində keçirilən qısamüddətli təlim, kurs və proqramlar üzrə təhsil almaq məqsədilə:**

3.3.4.1. namizədin ən yüksək təhsil səviyyəsi haqqında sənədin surəti;

3.3.4.2. namizəd təhsil aldıqda, təhsil alması barədə müvafiq təhsil müəssisəsindən arayış;

3.3.4.3. namizəd əmək fəaliyyəti ilə məşğul olduqda, əmək fəaliyyəti barədə müvafiq iş yerindən arayış;

3.3.4.4. namizədin tərcümeyi-halı;

3.3.4.5. namizədin sağlamlığı haqqında arayış (forma AZS086/1) (distant (məsafədən) formada təhsil zamanı lazım olmaya bilər).

3.4. Namizədin özünün ərsəyə gətirdiyi MYS məhsulu olduğu halda foto və video materiallar, sahibkarlıq (o cümlədən startap) fəaliyyəti ilə məşğul olduğu halda, VÖEN, startap şəhadətnaməsi (olduğu halda) və digər təsdiqedici materiallar bu Qaydaların 3.3-cü bəndində qeyd edilən sənədlərə əlavə edilə bilər.

3.5. Elektron ərizə namizəd tərəfindən təsdiq edildikdən sonra namizəd üçün Nazirliyin rəsmi internet informasiya ehtiyatlarına girişi olan elektron şəxsi kabinet yaradılır. Elektron şəxsi kabinet vasitəsilə namizəd istənilən vaxt elektron ərizəsinin cari statusu barədə məlumatı əldə edə bilər.

3.6. Elektron ərizə namizəd tərəfindən təqdim edildikdən sonra məlumatların tamlığı 7 (yeddi) iş günü müddətində yoxlanılır. Ərizə və ya sənədlərin natamamlığı, yaxud uyğunsuzluğu aşkar edildikdə və bu barədə namizədin elektron şəxsi kabinetinə məlumat göndərildikdən sonra namizəd 3 (üç) iş günü ərzində həmin məlumatları tam və düzgün şəkildə təqdim etməklə elektron ərizəni yenidən təsdiq etməlidir.

3.7. Sənədlərin tamlığı təkrar yoxlanıldıqdan sonra 30 (otuz) gün ərzində bu Qaydaların tələblərinə əsasən namizədin bu Qaydaların 2-ci hissəsində qeyd edilmiş müvafiq seçim meyarlarına uyğunluğunun qiymətləndirilməsi aparılır və namizədin müsahibəyə buraxılması, yaxud buraxılmaması barədə məlumat onun elektron şəxsi kabinetində yerləşdirilir və ya elektron ərizəsində qeyd etdiyi əlaqə vasitələri ilə ona göndərilir.

3.8. Bu Qaydaların 3.3-cü bəndində göstərilən sənədlər natamam təqdim olunduqda və ya həmin sənədlərdə uyğunsuzluqlar aşkar edildikdə və həmin çatışmazlıqlar və ya uyğunsuzluqlar bu Qaydaların 3.6-cı bəndində qeyd edilmiş müddətdə aradan qaldırılmadıqda, eləcə də bu Qaydaların tələblərinə uyğun qiymətləndirmə nəticəsində namizədin müvafiq seçim meyarlarına uyğun olmadığı müəyyən edildiyi hallarda namizəd müsahibəyə buraxılmır.

## 4. Təqaüd Proqramı üzrə müsahibənin təşkili və həyata keçirilməsi qaydası

4.1. Müsahibə proqram iştirakçılarının seçiminin bu Qaydaların tələblərinə uyğun təşkili və seçim prosesinin obyektivliyinin, aşkarlığının və şəffaflığının təmin edilməsi və bu Qaydalarda nəzərdə tutulmuş digər vəzifələrin yerinə yetirilməsi məqsədilə Nazirlik yanında sahə üzrə mütəxəssislərdən ibarət tərkibdə yaradılmış, ictimai əsaslarla fəaliyyət göstərən "Təqaüd Proqramı üzrə Komissiya" (bundan sonra – Komissiya) tərəfindən aparılır.

4.2. Komissiya 3 (üç) nəfərdən az olmamaqla, Nazirliyin əməkdaşlarından və sahə üzrə mütəxəssislərdən ibarət tərkibdə fəaliyyət göstərir. Komissiyanın tərkibi Nazirlik tərəfindən təsdiq edilir.

4.3. Müsahibə zamanı namizədlərin yalnız bu Qaydaların 2.1.5-2.1.6-cı, 2.2.6-2.2.7-ci, 2.3.4-2.3.5-ci və 2.4.3-2.4.4-cü yarımbəndlərdə göstərilən meyarlara uyğunluğu qiymətləndirilir.

4.4. Müsahibələr hər bir namizədlə Azərbaycan dilində və (və ya) namizədin təhsil almaq istədiyi tədris dilində fərdi qaydada olmaqla, 20 (iyirmi) dəqiqədən artıq olmayan müddətə keçirilir.

4.5. Müsahibə zamanı namizəd aşağıdakı tələblərə riayət etməlidir:

4.5.1. müsahibəyə təyin edilmiş vaxtda gəlmək və ya qoşulmaq;

4.5.2. üzrlü səbəbdən müsahibədə iştirak edə bilməyəcəyi təqdirdə, təyin edilmiş müsahibə tarixinə azı 1 (bir) iş günü qalmış Nazirliyə bu barədə məlumat vermək;

4.5.3. müsahibəni üzrlü səbəb olmadan tərk etməmək;

4.5.4. bu Qaydaların 3.3-cü bəndində göstərilən sənədlərin əslini və ya notariat qaydasında təsdiq edilmiş surətlərini (ingilis, rus və türk dillərindən başqa digər dillərdə olan sənədlərin notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini) müsahibədə müsahibə komissiyasına təqdim etmək;

4.5.5. müsahibə komissiyasının üzvlərinə hörmətlə yanaşmaq, onların suallarını, tapşırıqlarını sonadək dinləmək;

4.5.6. müsahibə zamanı Komissiya üzvlərinin suallara mahiyyəti üzrə cavab vermək;

4.5.7. müsahibənin aparılmasına mane olan texniki, rabitə və digər vasitələrdən istifadə etməmək.

4.6. Namizəd müsahibəyə müəyyən edilmiş vaxtda gəlmədikdə, müsahibə komissiyasının üzvləri tərəfindən onun müsahibədə iştirak etməməsi barədə akt tərtib edilir.

4.7. Bu Qaydaların 4.5.2-ci yarımbəndində göstərilən qaydada məlumat vermədən müsahibədə iştirak etməyən namizədlə həmin tədris ili üçün aparılan seçim çərçivəsində yeni müsahibənin keçirilməsinə yol verilmir.

4.8. Bu Qaydaların 4.5.2-ci yarımbəndində göstərilən qaydada məlumat verməklə müsahibədə iştirak etməyən namizədlə Komissiyanın qərarı ilə həmin tədris ili üçün aparılan seçim çərçivəsində 1 (bir) dəfədən artıq olmamaqla yeni müsahibənin keçirilməsinə yol verilir.

4.9. Namizədləri əvvəlcədən məlumatlandırmaqla müsahibələrin videoçəkilişi aparılır.

4.10. Namizədin bu Qaydaların 4.5.4-cü yarımbəndinə uyğun olaraq təqdim etdiyi sənədlər müsahibə başa çatdıqdan dərhal sonra namizədə qaytarılır.

4.11. Komissiya üzvləri müsahibə üzrə aşağıdakı tələblərə riayət etməlidirlər:

4.11.1. müsahibəyə təyin edilmiş vaxtda gəlmək və ya qoşulmaq;

4.11.2. müsahibəni üzrlü səbəb olmadan tərk etməmək;

4.11.3. müsahibənin aparılmasına mane olan texniki, rabitə və digər vasitələrdən istifadə etməmək;

4.11.4. namizədə yalnız bu Qaydaların 2.1.5-2.1.6-cı, 2.2.6-2.2.7-ci, 2.3.4-2.3.5-ci və 2.4.3-2.4.4-cü yarımbəndlərdə göstərilən meyarlara uyğunluğunun qiymətləndirilməsi üçün zəruri olan suallar vermək;

4.11.5. sualları verərkən, bu Qaydaların 4.4-cü bəndində göstərilən vaxt həddinə riayət etmək;

4.11.6. müsahibənin gedişi zamanı namizədin bu və ya digər meyara uyğun olub-olmaması barədə fikir bildirməmək;

4.11.7. müsahibənin aparılmasına mane olan digər hərəkətlərə yol verməmək;

4.11.8. namizədin qiymətləndirilməsi nəticələrinin məxfiliyinə riayət etmək.

4.12. Komissiya üzvlərinin yarısından çoxu iştirak etdikdə komissiya səlahiyyətlidir. Müsahibələrin nəticələri protokollaşdırılırmaqla komissiyanın iclasında iştirak edən bütün üzvləri tərəfindən imzalanır.

4.13. Komissiyanın fəaliyyətinin təşkili ilə bağlı işləri Komissiyanın Katibliyi (bundan sonra – Katiblik) həyata keçirir. Katibliyin tərkibi Nazirliyin aidiyyəti struktur bölmələrinin nümayəndələrindən ibarət olmaqla Azərbaycan Respublikasının mədəniyyət naziri tərəfindən təsdiq edilir.

4.14. Katiblik öz səlahiyyətləri çərçivəsində aşağıdakı vəzifələri icra edir:

4.14.1. müsahibələrin keçirilməsi ilə bağlı ümumi texniki və təşkilati tədbirləri həyata keçirir;

4.14.2. Komissiyalara daxil olan müraciətlərin və müraciətlərə əlavə edilmiş sənədlərin bu Qaydaların tələblərinə uyğunluğunu yoxlayır;

4.14.3. müsahibələrin keçirildiyi tarix və məkan barədə müsahibənin keçirilməsinə azı 3 (üç) iş günü qalmış Komissiya üzvlərinə və namizədə onun elektron şəxsi kabineti və elektron ərizəsində qeyd etdiyi digər əlaqə vasitələri ilə məlumat göndərir;

4.14.4. müsahibə keçirilən gün müsahibədə iştirak edəcək namizədlərin siyahısını və bu Qaydaların tələblərinə uyğun namizədin seçim meyarlarına uyğunluğunun qiymətləndirilməsinin nəticələrini müsahibə başlamazdan əvvəl Komissiyaya təqdim edir;

4.14.5. yekun protokolları tərtib edir və imzalanmaq üçün Komissiya üzvlərinə təqdim edir;

4.14.6. keçirilən müsahibələrin uçotunu aparır, onları təhlil edir, ümumiləşdirir və nəticələri barədə Nazirliyə illik hesabatlar təqdim edir;

4.14.7. bu Qaydalarda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir və hüquqları həyata keçirir.

## 5. Qiymətləndirmə

5.1. Müsahibədə qiymətləndirmə bu Qaydaların 2.1.5-2.1.6-cı, 2.2.6-2.2.7-ci, 2.3.4-2.3.5-ci və 2.4.3-2.4.4-cü yarımbəndlərdə göstərilən meyarlar üzrə aparılır, hər bir meyar üzrə ayrılıqda qiymətləndirmə isə 1-10 bal aralığında müəyyən edilir.

5.2. Komissiyanın üzvləri tərəfindən namizədlərə verilən qiymətlərin yuxarı həddi aşağıdakı kimi müəyyən edilir:

5.2.1. təhsil almaq istədiyi ixtisaslaşma istiqaməti və ya təlim, kurs və proqramlar çərçivəsində mənimsəniləcək sahə və dərslər məcmusu üzrə namizədin nəzəri bilikləri – 10 bal;

5.2.2. təhsil almaq istədiyi ixtisaslaşma istiqaməti və ya təlim, kurs və proqramlar çərçivəsində mənimsəniləcək sahə və dərslər məcmusu üzrə namizədin yaradıcılıq qabiliyyəti və istedadı – 10 bal;

5.2.3. namizədin mühakimə, təqdimat və kommunikasiya bacarıqları – 10 bal.

5.3. Yekun nəticə aşağıdakı düstur əsasında hesablanılır:

$$\frac{\text{Ümumi balların cəmi}}{\text{Komissiya üzvlərinin sayı}} = \text{Nəticə}$$

5.4. Yekun müsahibə balı eyni olan iki və daha çox namizədi bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

5.4.1 Bu Qaydaların 3.4-cü bəndində qeyd edilmiş təsdiqedici materiallar əsasında MYS və mədəniyyətin müxtəlif sahələri üzrə hər hansı bir uğurunun olması;

5.4.2 təqdim edilən beynəlxalq dil sertifikatlarına əsasən namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dili biliyinin nisbətən daha yüksək səviyyədə olması;

5.5. Namizədin yekun nəticəsi haqqında məlumat namizədin elektron şəxsi kabineti və elektron ərizəsində göstərdiyi digər əlaqə vasitələri ilə ona ötürülür.

5.6. Namizəd qəbul edilmiş qərardan inzibati və ya məhkəmə qaydasında şikayət verə bilər.

5.7. Proqram iştirakçısı seçilmiş namizədlərin siyahısı Nazirliyin müvafiq əmri ilə təsdiq edilir və onlarla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada xarici ali təhsil müəssisəsində təhsilin maliyyələşdirilməsini tənzimləyən

müqavilə və Nazirlik tərəfindən müəyyən edilmiş qaydada qısamüddətli təlim, kurs və proqramlar üzrə maliyyələşməni tənzimləyən müqavilə bağlanılır.

## 6. Təqaüd proqramı çərçivəsində təhsilin maliyyələşdirilməsi

6.1. Təqaüdün verilməsi Strategiya çərçivəsində Nazirliyə ayrılan vəsait, həmçinin qanunla qadağan olunmayan digər vəsaitlər hesabına maliyyələşdirilir.

6.2. Xaricdə təhsil alan proqram iştirakçısının yaşayış xərcləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 1 iyun tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində xarici ali təhsil müəssisələrində təhsilin maliyyələşdirilməsi Qaydası"na Əlavədə nəzərdə tutulmuş aylıq xərc normalarına müvafiq olaraq hesablanır.

6.3. Təqaüd Proqramı çərçivəsində bu Qaydaların 1.4-cü bəndində qeyd edilmiş istiqamətlərdə təhsilin maliyyələşdirilməsi nəzərdə tutulur.

6.4. Proqram iştirakçılarının Təqaüd Proqramı çərçivəsində maliyyələşdirildiyi xərclərinə aşağıdakılar daxildir:

6.4.1. təhsil xərcləri (təhsil haqqı, xarici ali təhsil müəssisəsində qeydiyyat haqqı və proqram iştirakçılarının təhsili ilə bağlı ödənilməsi xarici ali təhsil müəssisəsi tərəfindən mütləq tələb olunan xərclər);

6.4.2. viza və təhsil aldığı ölkədə qeydiyyat xərcləri (vizanın rəsmiləşdirilməsinə görə tutulan rüsum, vizanın rəsmiləşdirilməsi ilə bağlı tibbi müayinə xərcləri və proqram iştirakçısının təhsil aldığı ölkədə qeydiyyata alınması xərcləri);

6.4.3. beynəlxalq nəqliyyat xərcləri (proqram iştirakçısının hər tədris ilinin əvvəlində (xarici kurs, təlim və proqramlar üçün təhsil müddətinin əvvəlində) bir dəfə təhsil yerinə gedişi və tədris ilinin sonunda (xarici kurs, təlim və proqramlar üçün təhsil müddətinin sonunda) Azərbaycan Respublikasına gəlişi üçün təyyarə ("ekonom-sinif" üzrə bir baqaj olmaqla), həmçinin beynəlxalq reyslər üzrə digər ictimai nəqliyyat vasitəsi biletinin qiyməti);

6.4.4. tibbi sığorta ilə bağlı xərclər (proqram iştirakçısının təhsil aldığı ölkədə təhsil müddəti ərzində tibbi sığortası üçün ödənilən icbari sığorta haqqı);

6.4.5. bank və plastik kartların təmin olunması ilə bağlı xərclər (təqaüd kartlarına görə tələb edilən illik xidmət haqqı və təhsilinin maliyyələşdirilməsi ilə bağlı bank xidmətləri haqqı);

6.4.6. yaşayış xərcləri (tədris ilinin başlanması və bitməsi tarixləri üzrə təhsil aldığı ölkədə olduğu dövrdə yaşayış yeri (yataqxana və ya mənzil kirayəsi), qida, tədris materialları ilə təmin olunma, şəhərdaxili nəqliyyatdan istifadə, rabitədən istifadə və s.).

6.5. Ölkədaxili qısamüddətli təlim, kurs və proqramlarla bağlı proqram iştirakçılarının yarana biləcək səyahət xərcləri "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarına uyğun olaraq hesablanır.

6.6. Fors-major hallarında (baş verən zəlzələ, yanğın, təbii fəlakət, müharibə və sair fövqəladə hallar) digər zəruri xərclərin maliyyələşdirilməsi təmin edilə bilər.

6.6.1. Proqram iştirakçılarının ailə üzvlərinin və digər qohumlarının xərclərinin maliyyələşdirilməsi həyata keçirilmir.

6.6.2. Proqram iştirakçılarının təhsil xərcləri təqdim olunan təsdiqedici sənədlər (hesab-faktura və ya digər sənədlər) əsasında xarici ali təhsil müəssisələrinin bank hesablarına köçürülür.

6.6.3. Aylıq yaşayış xərcləri proqram iştirakçısının təhsil aldığı xarici ali təhsil müəssisəsi tərəfindən təqdim edilmiş təhsilin başlanması və bitməsi tarixlərinin göstərildiyi sənədlər əsasında proqram iştirakçılarının bank hesablarına ödənilir.

6.7. Proqram iştirakçılarının viza rüsumu və təhsil aldıqları ölkədə qeydiyyat xərcləri proqram iştirakçıları tərəfindən bu Qaydaların 6.13-cü bəndinə uyğun olaraq ödənilir.

6.8. Tibbi sığorta xərcləri xarici ali təhsil müəssisəsi və ya tibbi sığortanın rəsmiləşdirildiyi sığorta şirkəti tərəfindən təqdim edilmiş hesab-faktura və ya digər sənədlər əsasında ödənilir.

6.9. Proqram iştirakçıları üçün təyyarə və ya beynəlxalq reyslər üzrə digər ictimai nəqliyyat vasitəsi biletləri proqram iştirakçısının özü tərəfindən əldə edilir, yaxud onun müraciəti əsasında Nazirlik tərəfindən biletlərin satışını həyata keçirən şirkətə sifariş olunur. Təyyarə və ya beynəlxalq reyslər üzrə digər ictimai nəqliyyat vasitəsi biletlərinin Nazirlik tərəfindən sifariş edilməsi üçün proqram iştirakçısı azı 1 (bir) ay əvvəldən Nazirliyə müraciət etməlidir. Nazirlik tərəfindən sifariş edilmiş təyyarə və ya beynəlxalq reyslər üzrə digər ictimai nəqliyyat vasitəsi biletlərinin dəyəri onların satışını həyata keçirən şirkətin təqdim etdiyi hesab-faktura əsasında ödənilir.

6.10. Proqram iştirakçısının xərcləri özü tərəfindən ödənildiyi halda, həmin xərclərin əvəzi onun təqdim etdiyi təsdiqedici sənədlər (hesab-faktura və ya digər sənədlər, ödənişi təsdiq edən sənəd, beynəlxalq reyslər üzrə ictimai nəqliyyat biletinin minik talonu, elektron bilet və s.) əsasında Nazirliyin maliyyələşdirən quruma təqdim etdiyi sifarişlərin rəsmiləşdirildiyi tarixə qüvvədə olan rəsmi məzənnəyə uyğun Azərbaycan manatı ilə proqram iştirakçısının bank hesabına ödənilir.

6.11. Bank və plastik kartların xərcləri təqdim olunan hesab-faktura və digər sənədlər əsasında müvəkkil bankın hesabına köçürülür.

6.12. Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi illik (tədris ili) və ya semestrlər üzrə həyata keçirilir.

6.13. Proqram iştirakçısının təhsilinin maliyyələşdirilməsi təhsil aldığı xarici ali təhsil müəssisələri tərəfindən müəyyən edilən minimum normativ təhsil müddətində həyata keçirilir. Proqram iştirakçısının minimum normativ təhsil müddətindən artıq müddətdə təhsilinin maliyyələşdirilməsi proqram iştirakçısının minimum normativ təhsil müddətinin bitməsinə azı 6 (altı) ay qalmış etdiyi və təhsil müddətinin uzadılmasının əsaslı səbəbləri göstərilən müraciəti üzrə (təsdiqedici sənədlər təqdim olunmaqla) Komissiyaların rəyi əsasında Nazirliyin razılığından sonra həyata keçirilir. Təhsil müddəti uzadıldıqda, təhsilin maliyyələşdirilməsi bir semestrdən artıq olmayan müddətə həyata keçirilir. Akademik məzuniyyətdə olan dövrdə proqram iştirakçısının xərcləri maliyyələşdirilmir.

6.14. Proqram iştirakçısının hər hansı səbəbə görə xarici təhsil müəssisəsinin olduğu ölkəyə tədrisin başlanması tarixindən daha gec daxil olduqda və ya həmin xarici təhsil müəssisəsində daha gec qeydiyyatdan keçdikdə, onun yaşayış xərcləri gecikmə müddətinə uyğun olaraq azaldılır.

6.15. Proqram iştirakçısının xərcləri özü tərəfindən ödənildiyi halda, həmin xərclərin əvəzi təsdiqedici sənədlər əsasında sifarişlərin rəsmiləşdirildiyi tarixə qüvvədə olan rəsmi məzənnəyə uyğun ödənilir. Proqram iştirakçılarının xərcləri ödənilərkən valyuta mübadiləsi məzənnələri arasında yaranan fərq bank xərci kimi tanınır və növbəti ödənişlərdə nəzərə alınır.

6.16. Bakalavriat və magistratura səviyyələri üzrə xaricdə təhsil alan proqram iştirakçısı hər semestr və ya tədris ili başa çatdıqdan sonra 1 (bir) aydan gec olmayaraq tədris planında nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi barədə təhsil aldığı xarici ali təhsil müəssisəsinin arayışını və qiymət cədvəlini (transkript) Nazirliyə təqdim edir. Qısamüddətli təlim, kurs və proqramlar üzrə proqram iştirakçısı nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi barədə təhsil təşkilatçısının arayışını və yekun qiymətləndirməni (əgər varsa) müvəffəqiyyətlə keçməsinə dair sənədi Nazirliyə təqdim edir.

6.17. Proqram iştirakçısının akademik borcu olduğu müəyyən edildikdə və ya qısamüddətli təlim, kurs və proqramlar zamanı onların təşkilatçıları tərəfindən tələb olunan

öhdəlikləri yerinə yetirmədiyinə dair Nazirliyə məlumat daxil olduqda, proqram iştirakçısının təhsilinin maliyyələşdirilməsi həmin hal aradan qaldırılanadək Nazirlik tərəfindən dayandırılır.

6.18. Təqaüdün maliyyələşdirilməsi ilə bağlı digər təfərrüatlar bu Qaydaların 5.7-ci bəndində qeyd olunan müqavilələrdə müəyyənləşdirilir.

## 7. Digər müddəalar

7.1. Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsinə ayrılan vəsaitlərdən istifadənin monitorinqinin aparılması üçün Katiblik başa çatmış hər təqvim ili üzrə 1 (bir) aydan gec olmayaraq Nazirliyə ayırdığı vəsaitdən istifadə haqqında hesabat təqdim edir. Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsinə ayrılan vəsaitlərdən istifadə haqqında hesabatın forması Nazirlik tərəfindən müəyyən edilir.

7.2. Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi məzun olduqdan sonra Nazirliyin strukturuna daxil olan və daxil olmayan tabeliyindəki qurumlarda təhsil aldıqları ixtisaslaşma istiqamətləri üzrə 3 (üç) ildən az olmayan müddətdə əmək fəaliyyəti, o cümlədən Azərbaycan Respublikasında qeydiyyata alınmış sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, habelə həmin qurumlar tərəfindən təşkil edilən ustad dərslərində təlimçi qismində iştirak etmək şərtilə həyata keçirilir. Bu şərt təhsilin maliyyələşdirilməsi üzrə müqavilədə öz əksini tapır.

7.3. Təqaüd Proqramı üzrə təhsili maliyyələşdirilən proqram iştirakçıları çəkilən bütün xərcləri geri qaytarmaqla bu Qaydaların 7.2-ci bəndində qeyd olunan öhdəlikdən azad olunmaq hüququna malikdirlər.

7.4. Proqram iştirakçılarının eyni kurs, təlim və proqram çərçivəsində ixtisaslaşma istiqamətlərinin dəyişdirilməsinə yol verilmir.

7.5. Təhsil müəssisələrinin dəyişdirilməsinə müqavilə ilə müəyyən edilmiş təhsil müddəti saxlanılmaqla və xarici ali təhsil müəssisələrinin seçim meyarlarına uyğunluğu gözlənilməklə Komissiyanın təklifləri əsasında Nazirlik tərəfindən razılıq verilir.

**1 nömrəli əlavə**

### “Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi Təqaüd Proqramı” çərçivəsində maliyyələşdiriləcək ixtisaslaşma istiqamətlərinin siyahısı və kvotalar

| İxtisaslaşma istiqamətlərinin siyahısı: | |
|---|---|
| 1. | Audiovizual (musiqi, kino (o cümlədən animasiya), videoqrafiya və fotoqrafiya) |
| 2. | Dəb sənəti |
| 3. | Dizayn |
| 4. | Kuratorluq |
| 5. | Memarlıq |
| 6. | Tədbirlərin təşkili |
| 7. | Mədəni və yaradıcı sahə üzrə menecment |
| 8. | Nəşriyyatlarla işin təşkili |

| | |
|---|---|
| 9. | Oyun sənayesi |
| 10. | Teatr, komediya və performans |
| 11. | Yaradıcı texnologiyalar |

Qeyd:

**Təqaüd Proqramı çərçivəsində bu siyahıda yer alan ixtisaslaşma istiqamətləri üzrə praktiki sahibkarlıq və menecment bacarıqlarının öyrədilməsini nəzərdə tutan proqramlar üzrə təqaüdün ayrılması nəzərdə tutulur.**

**2 nömrəli əlavə**

**Xarici ali təhsil müəssisələrinin siyahısı**

| Sıra №-si | Ölkələrin adları | Ali təhsil müəssisələrinin adları |
|---|---|---|
| 1. | Almaniya Federativ Respublikası | Münix Texniki Universiteti (Technical University of Münich) |
| 2. | Amerika Birləşmiş Ştatları | Yel Universiteti (Yale Universitety) |
| 3. | Amerika Birləşmiş Ştatları | Nyu-York Universiteti (New York University) |
| 4. | Amerika Birləşmiş Ştatları | Kaliforniya Universiteti, Los Anceles (University of California, Los Angeles) |
| 5. | Amerika Birləşmiş Ştatları | Massaçusets Texnologiya İnstitutu (Massachusetts Institute of Technology) |
| 6. | Amerika Birləşmiş Ştatları | İncəsənət Akademiyası Universiteti (Academy of Art Universiity) |
| 7. | Amerika Birləşmiş Ştatları | Miçiqan Universiteti (University of Michigan) |
| 8. | Amerika Birləşmiş Ştatları | Kaliforniya Universiteti, Berkeley (University of California, Berkeley) |
| 9. | Amerika Birləşmiş Ştatları | Cənubi Kaliforniya Universiteti (University of Southern California) |
| 10. | Amerika Birləşmiş Ştatları | Oklahoma Şəhər Universiteti (Oklahoma City University) |
| 11. | Avstraliya İttifaqı | Melburn Universiteti (University of Melbourne) |

| | | |
|---|---|---|
| 12. | Avstraliya İttifaqı | Sidney Universiteti (University of Sydney) |
| 13. | Avstraliya İttifaqı | SAE Kreativ Media İnstitutu (SAE Creative Media Institute) |
| 14. | Birləşmiş Ərəb Əmirlikləri | İncəsənət və Yaradıcı Müəssisələr Kolleci (College of Arts and Creative Enteprises) |
| 15. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Kent Universiteti (University of Kent) |
| 16. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Kembric Universiteti (University of Cambridge) |
| 17. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Edinburq Universiteti (University of Edinburgh) |
| 18. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Kraliça Marqaret Universiteti (Queen Margaret University) |
| 19. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | London Kral Kolleci (King's College London) |
| 20. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Koventri Universiteti (Coventry University) |
| 21. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Qlazqo Universiteti (University of Glasgow) |
| 22. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Mançester Universiteti (University of Manchester) |
| 23. | Çin Xalq Respublikası | Nankin İncəsənət Universiteti (Nanjing University of the Arts) |
| 24. | Çin Xalq Respublikası | Pekin Dəb Texnologiyası İnstitutu (Beijing Institute of Fashion Technology) |
| 25. | Çin Xalq Respublikası | Şanxay Politexnik Universiteti (Shanghai Polytechnic University) |
| 26. | Çin Xalq Respublikası | Tsinqua Universiteti (Tsinghua University) |
| 27. | Çin Xalq Respublikası | USC-SJTU Mədəni və Yaradıcı Sənayelər Universiteti (USC-SJTU Institute of Cultural and Creative Industry) |
| 28. | Çin Xalq Respublikası | UCA Kreativ Sənətlər Universiteti (UCA University for the Creative Arts) |

| | | |
|---|---|---|
| 29. | Çin Xalq Respublikasının Honq Konq Xüsusi İnzibati Ərazisi | Honq Konq Təhsil Universiteti (Education Universiy of Hong Kong) |
| 30. | Estoniya Respublikası | EKA Estoniya İncəsənət Akademiyası (EKA Estonian Academy of Arts) |
| 31. | Fransa Respublikası | Fransa Dəb İnstitutu (Institut Français de la Mode) |
| 32. | Fransa Respublikası | Paris İncəsənət Məktəbi (Paris School of Art) |
| 33. | Fransa Respublikası | Sorbonna Universiteti (Sorbonne University) |
| 34. | Hindistan Respublikası | Cənubi Hindistan Film İnstitutu (South India Film Instiute) |
| 35. | Hindistan Respublikası | Hindistan Film və Televiziya İnstitutu (Film and Television Institute of India) |
| 36. | İspaniya Krallığı | Barselona Universiteti (Universitat de Barcelona) |
| 37. | İspaniya Krallığı | UİC Barcelona |
| 38. | İtaliya Respublikası | Bolonya Universiteti (University of Bologna) |
| 39. | İtaliya Respublikası | Milan Politexnik (Politecnico di Milano) |
| 40. | İtaliya Respublikası | Roma Biznes Məktəbi (Rome Business School) |
| 41. | Kanada | Toronto Universiteti |
| 42. | Koreya Respublikası | Koreya Texnik Universiteti (Tech University of Korea) |
| 43. | Koreya Respublikası | Seul Universiteti (University of Seul) |
| 44. | Koreya Respublikası | Kyungwoon University |
| 45. | Rusiya Federasiyası | Sankt-Peterburq Ali İqtisad Məktəbi (Higher School of Economics Saint Petersburg) |
| 46. | Sinqapur Respublikası | Sinqapur Milli Universiteti (National University of Singapore) |
| 47. | Sinqapur Respublikası | Sinqapur İncəsənət Universiteti (University of The Arts Singapore) |
| 48. | Malayziya Federasiyası | Malaya Universiteti (University of Malaya) |
| 49. | Türkiyə Respublikası | Səlçuq Universiteti (Selçuk Universitesi) |

| | | |
|---|---|---|
| 50. | Türkiyə Respublikası | Yıldız Texniki Universiteti (Yıldız Teknik Universitesi) |
| 51. | Türkiyə Respublikası | İstanbul Texniki Universiteti (İstanbul Teknik Universitesi) |
| 52. | Türkiyə Respublikası | Ankara Universiteti (Ankara Universitesi) |
| 53. | Türkiyə Respublikası | Orta Şərq Texniki Universiteti (Orta Doğu Teknik Universitesi) |
| 54. | Türkiyə Respublikası | Bilkənt Universiteti (Bilkent Universitesi) |
| 55. | Yaponiya | Şizuoka İncəsənət və Mədəniyyət Universiteti (Shizuoka University of Art and Culture) |

Qeyd:

**1.** Bu siyahıda yer alan ali təhsil müəssisələri yerləşdikləri ölkənin MYS-lərin inkişafına dair göstəriciləri, ixtisaslaşma istiqamətləri üzrə kadr hazırlığı baxımından imkanları və uğurları nəzərə alınmaqla müəyyənləşdirilmişdir.

**2. Namizədin Təqaüd Proqramı çərçivəsində təhsil almaq istədiyi müəssisə bu siyahıda yer almadığı təqdirdə, həmin müəssisənin yerləşdiyi ölkənin MYS-lərin inkişafına dair göstəriciləri və ixtisaslaşma istiqamətləri üzrə kadr hazırlığı baxımından imkanları və uğurları nəzərə alınmaqla, maliyyələşdirilməsi Komissiya tərəfindən məqsədəmüvafiq hesab edilə bilər**.